**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏ OBRAZI AZƏRBAYCAN ƏDƏBİYYATINDA

İxtisas: 5716.01 - Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Zamin İsrafil oğlu Babazadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan-2024**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Filologiya elmləri doktoru
**Fərman Yunis oğlu Xəlilov**

**Rəsmi opponentlər:** Filologiya elmləri doktoru, professor
**Yaqub Məhərrəm oğlu Babayev**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Ramiz Asəf oğlu Qasımov**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Şəhla Kifayət qızı Şirəliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.39 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ________________ AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor
**Əbülfəz Aman oğlu Quliyev**

Dissertasiya şurasının elmi katibi: ________________ Filologiya üzrə fəlsəfə doktoru, dosent
**İman Zeynalabdin oğlu Cəfərov**

Elmi seminarın sədri: ________________ Filologiya elmləri doktoru
**Lütviyyə Süleyman qızı Əsgərzadə**

# Giriş

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Milli dramaturgiyamızın banisi, yeni tipli nəsrin yaradıcılarından biri, müasir tənqidi ədəbiyyatşünaslığımıza gətirən Mirzə Fətəli Axundzadənin ədəbi, fəlsəfi, publisistik irsi Azərbaycan ədəbiyyatı və ictimai fikir tarixində yeni bir mərhələ təşkil edir. Onun yaradıcılığı XIX əsrdən etibarən tədqiqatçıların marağına səbəb olmuş, şəxsiyyəti isə yazıçı, şair və dramaturqların diqqətindən yayınmamışdır. M.F.Axundzadə haqqında lirik, epik və dramatik növlərin müxtəlif janrlarında əsərlər qələmə alınmışdır. Onun obrazının bədii əsərlərdə inikasının öyrənilməsi ədəbiyyatşünaslığımız qarşısında duran aktual məsələlərdəndir.

M.F.Axundzadənin bədii obrazının təsvirinə mütəfəkkir yazıçının özü həyatda olduğu zamandan başlanılmışdır. Dostları, müasirləri olan Qasım bəy Zakir, Cəfərqulu xan Nəva, əmisi oğlu Mirzə Məhəmməd Katib şeirlərində onun bədii obrazını yaratmışdır. XIX əsrdə Axundzadə obrazına əsasən şeirlərdə rast gəliriksə, XX əsrdə onun simasını şeirlərlə yanaşı pyeslərdə, romanlarda, povest və hekayələrdə görürük.

Azadlıq carçısı, köləliyin düşməni olan M.F.Axundzadə haqqında sovet dövründə yazılan bədii əsərlərin bir qismində-kinofilmlərdə və tamaşalarda, onun obrazı heyif ki, sovet ideologiyasının daşıyıcısına çevrilmişir. Bunun əsas səbəblərindən biri də onun çar hökumətinə olan mənfi münasibəti hesab edilir. Ancaq bu o demək deyil ki, M.F.Axundzadə obrazı yaradılan bütün əsərlərdə həmin “idelogiyanın daşıyıcısı”dır. Müəlliflərin bir qismi M.F.Axundzadənin müstəmləkəçikiyə qarşı olduğunu da xatırlatmışlar.

M.F.Axundzadə obrazının yaradıldığı bədii əsərlər haqqında Salman Mümtaz, Akif Hüseynov, Yaşar Qarayev, Həsən Quliyev, Bəkir Nəbiyev, Aydın Dadaşov, Cəfər Cəfərov, Məmməd Cəfər Cəfərov, Yavuz Axundlu, Təyyar Salamoğlu, Elçin Əfəndiyev, Tehran Əlişanoğlu kimi müəlliflərin müxtəlif aspektli araşdırmaları vardır. M.F.Axundzadə obrazının yaradıldığı şeirləri ilk dəfə tədqiqata cəlb edən Salman Mümtaz olmuşdur. O “Azərbaycan ədəbiyyatı

qaynaqları" kitabında Cəfərqulu xan Nəvanın, Molla Abbas Aşuftənin, Mirzə Məhəmməd Katibin M.F.Axundzadəyə həsr etdiyi şeirlərinindən bəhs etmişdir. Kitabda şeirlərin yazıldığı tarixi dövr, onların yazılma səbəbləri də ədəbiyyat tarixi prizmasından əks etdirilmişdir.

M.F.Axundzadə obrazının yaradıldığı əsərlərin böyük bir qismi sovet dövründə yazılmışdır. Bu əsərlərin öyrənilməsi və tədqiqi tarixi də məhz sovet dövrünə təsadüf edir. Müstəqillik illərində bu əsərlər haqqında, az da, olsa tədqiqatlar aparılmışdır.

Professor Y.Axundlu yazıçı Ç.Hüseynovun "Fətəli fəthi", Əlisa Nicatın "Mirzə Şəfi", "Gəncəli müdrik" tarixi romanlarını tədqiq etmiş, əsərlərin janr-forma xüsusiyyətlərini, mövzu-ideyasını və obrazlar aləmini geniş şərh etmişdir.

Təyyar Salamoğlunun "Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri"[1] əsərində "Fətəli fəthi" romanının janr xüsusiyyətləri, mövzusu araşdırılmış, roman haqqında dəyərli fikirlər söylənilmişdir. Əsərdə romanın janr xüsusiyyətləri, tarixiliyi və bədiiliyi geniş araşdırılmış, şərhlər verilmişdir.

H.Quliyev də "Fətəli fəthi" romanı barədə, romanın janr xüsusiyyətləri, obrazlar sistemi haqqında məlumat vermişdir. Yaşar Qarayev "Ulduzların müdrikliyi"[2] məqaləsində M.F.Axundzadə obrazının yaradıldığı Çingiz Hüseynovun "Labüdlük" povesti və "Fətəli fəthi" romanından bəhs etmişdir. Hər iki əsəri yüksək qiymətləndirən Y.Qarayev əsərdə M.F.Axundzadənin təsvirinə xüsusi diqqət yetirmişdir. Müəllif həmçinin obrazın daxili aləminin zənginliyinə və düşüncələrinə də məqalədə yer vermişdir. Aydın Dadaşov isə Həsən Həsənovun "Brüsseldən məktublar" pyesi haqqında tədqiqatlar aparmış, əsərin sənədlər əsasında yazılmasına, obrazların səciyyəvi xüsusiyyətlərinə yer vermişdir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin M.F.Axundzadə haqqında verdiyi sərəncam və sərəncamda deyilənlər görkəmli mütəfəkkirin ədəbiyyat və mədəniyyətimizdə yerini bir daha

---

[1] Cavadov T.S. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri / Salamoğlu T.–Bakı: BQU, –2008. s. 187-189.

[2] Qarayev Y.V. Ulduzların müdrikliyi // – Bakı: "Azərbaycan" jurnalı,–1982. № 3,– s. 179-189.

təsbit etmişdir. Sərancamdan oxuyuruq: “2012-ci ildə böyük Azərbaycan mütəfəkkiri, milli dramaturgiyamızın banisi, görkəmli ictimai xadim və maarifçi Mirzə Fətəli Axundzadənin anadan olmasının 200 illiyi tamam olur”.

Sərəncamda onun “həyatı boyu doğma vətəninin və xalqının tərəqqisi yolunda yorulmadan çalışaraq yeni dövrün irəli sürdüyü mühüm elmi, mədəni və ictimai-siyasi məsələlərə daim fəal münasibət ifadə edən və zamanın qabaqcıl ideyalarından bəhrələnməyə çağıran yaradıcılığı ilə Azərbaycan mədəniyyətinin inkişafı tarixində parlaq səhifə açan bir şəxsiyyət” olduğu vurğulanır[3].

Göründüyü kimi, M.F.Axundzadə obrazının bədii inikasının öyrənilməsi daim ədəbiyyatşünaslığımızın diqqət mərkəzində olmuş, lakin mövcud araşdırmalarda M.F.Axundzadə obrazının yaradıldığı bütün əsərlər sistemli şəkildə öyrənilməmişdir. Məhz buna görə də bu gün belə bir mövzunun azərbaycançılıq ideologiyası prinsipləri əsasında araşdırılması zərurəti meydana çıxır. Mövzunun aktuallığını şərtləndirən əsas amillərdən biri də budur.

**Tədqiqatın obyekti və predmeti.** XIX əsr Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirən, dramaturgiya və yeni tipli nəsrin banisi, yeni əlifba layihəsinin müəllifi, ədəbi-tənqidi və fəlsəfi fikirləri ilə bütün dünyada məşhur olan M.F.Axundzadə obrazı yaradılan lirik, epik və dramatik növdə yazılan bədii əsərlər, bu əsərlərin təhlilini özündə ehtiva edən jurnal, qəzet, kitab və monoqrafiyalar tədqiqatın obyektini təşkil edir.

Tədqiqatın predmeti isə M.F.Axundzadənin həyatı və çoxşaxəli fəaliyyətinin müxtəlif janrlarda qələmə alınan bədii əsərlərdə hansı yönlərdən əks etdirilməsi, həmin əsərlərdə yaradılan M.F.Axundzadə obrazının səciyyəvi xüsusiyyətlərinin aşkara çıxarılması, ədib ilə bağlı hadisələri təsvir edərkən müəlliflərin tarixi reallığa sadiqliyi və təxəyyül gücündən nə dərəcə istifadə etmələrinin müəyyənləşdirilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan ədəbiyyatında M.F.Axundzadə obrazının təcəssümünü bütün parametrləri ilə araşdırıb öyrənməkdir. Bunun üçün

---

[3] http://anl.az/el/emb/M.F.Axundzade/doc5.html

Axundzadəyə həsr olunan, demək olar ki, bütün bədii əsərlər tədqiqata cəlb edilmişdir. Qarşıya qoyulan məqsədi həyata keçirmək üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- M.F.Axundzadə obrazının yaradıldığı bədii əsərləri sistemli şəkildə araşdırmaq və tədqiqata cəlb etmək;
- Ədəbiyyatımızda Axundzadə obrazı üçün xarakterik olan bədii meyilləri aydınlaşdırmaq;
- Bədii ədəbiyyatda təsvir edilən M.F.Axundzadə obrazını təhlil etmək, onun bədii psixologizm meyarlarını şərh etmək;
- M.F.Axundzadə obrazının fərdi xüsusiyyət və keyfiyyətlərini müəyyənləşdirmək;
- M.F.Axundzadə dövrünün və şəxsiyyətinin səciyyəvi xüsusiyyətlərini müqayisə zəminində öyrənmək, ədibin psixologiyasını təhlil zamanı daha çox müəyyənləşdirmək;
- Bədii əsərlərdə M.F.Axundzadənin azadlıq və müasirlik haqqında olan düşüncələrinin əks etdirilməsi məsələsini araşdırmaq;
- M.F.Axundzadənin əsərlərindəki fikirlərlə, onun obrazının yaradıldığı əsərlərdə verilən fikirləri qarşılaşdırmaq;
- Tədqiqata cəlb olunan M.F.Axundzadə obrazının yaradıldığı bədii nümunələrdə irəli sürülən estetik-bədii düşüncələri təhlil etmək;
- M.F.Axundzadə obrazı ilə M.F.Axundzadə şəxsiyyətinin qarşılıqlı təhlilini vermək;
- Axundzadə obrazının yaradıldığı bədii əsərlərin yazıldığı dövr, ictimai mühiti araşdırmaq;
- M.F.Axundzadə obrazının yaradıldığı bədii əsərlər haqqındakı tənqidi fikirləri, ədəbiyyatşünaslığın münasibətini nəzərdən keçirmək, bu fikirləri çağdaş düşüncə müstəvisinə gətirmək;
- M.F.Axundzadə obrazının milli poeziya, nəsr və dramaturgiya tarixində yerini və rolunu araşdırmaq.

**Tədqiqatın metodları.** M.F.Axundzadə obrazının yaradıldığı bədii əsərlərə tarixi aspektden yanaşılmış, dövrün ictimai-siyasi hadisələrinin bədii əsərlərdəki əksi çağdaş meyarlar əsasında araşdırılmışdır. Dissertasiyada bədii əsərlər xronoloji əsasda sistemləşdirilmiş, Axundovşünaslığın müxtəlif mərhələləri müqayisəli şəkildə diqqət mərkəzinə çəkilmişdir. Tədqiqat işində tarixi-müqayisəli, sistemli təhlil və strukturalist təhlil metodlarından

istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**.

Tədqiqat işində aşağıdakı müddəalar müdafiəyə çıxarılır:

- M.F.Axundzadə obrazı yaradılan bədii əsərlərdə əsərin yazıldığı dövrə uyğun olaraq M.F.Axundzadə obrazının xüsuiyyətləri fərqlidir.

- M.F.Axundzadə obrazı yaradılan bədii əsərlərdə obrazın təsvirinin əhatəliliyi fərqlidir.

-Bədii əsərlərdə M.F.Axundzadə obrazının tarixi mənəbələrdəki M.F.Axundzadə ilə oxşar və fərqli cəhətləri çoxdur.

-M.F.Axundzadə obrazının daxili mənəvi dünyasının açılışını, duyğu və düşüncələrinin ifadəsini ona həsr olunan bədii əsərlərdə ön plana çəkmək əsərlərin ortaq cəhətlərindəndir.

-M.F.Axundzadə obrazı yaradılan əsərlərə ədəbiyyatşünaslıqda olan münasibətin öyrənilməsi və ədibin obrazı yaradılan dram əsərlərin səhnə taleyinin dramaturji tədqiqatlar əsasında araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

**Tədqiqatın elmi yeniliyi**. M.F.Axundzadə obrazının yaradıldığı bədii əsərlər ilk dəfə olaraq azərbaycançılıq ideologiyası əsasında, milli dövlətçilik konsepsiyasına uyğun şəkildə araşdırılmışdır.

- Bu günə qədərki elmi araşdırmalardan kənarda qalan M.F.Axundzadənin obrazı yaradılmış bir sıra şeir, poema, hekayə, povest və dram əsərləri ilk dəfə olaraq tədqiqata cəlb edilmişdir.

- M.F.Axundzadə obrazı yaradılan müxtəlif ədəbi növ və janrlarda yazılmış əsərlərin ideya-bədii xüsusiyyətləri, estetik-bədii keyfiyyətləri, dili və üslubi səciyyəsi elmi təhlil müstəvisinə gətirilmişdir.

- M.F.Axundzadə obrazı yaradılan bədii əsərlər tarixi dövr, müasir gerçəklik və yazıçı mövqeyi prizmasından diqqət mərkəzinə çəkilmiş, ilk dəfə olaraq bu istiqamətdə diqqətəlayiq elmi mülahizələr irəli sürülmüşdür.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Dissertasiyada M.F.Axundzadə obrazı yaradılan bədii əsərlər milli təfəkkür işığında qiymətləndirilir. Müxtəlif janrlı bədii nümunələrdə M.F.Axundzadə şəxsiyyətinin əks etdirilmə səviyyəsi, şəxsiyyət və zaman, şəxsiyyətə

yazıçı münasibətinin ifadəsi, dövrün ictimai, sosial-mədəni reallıqlarının bədii müstəvidə əksi məsələləri araşdırılmışdır. Həmçinin aparılan tədqiqatlarda ədəbi mənbələrlə yanaşı, tarixi qaynaqlara da istinad olunmuş, tarixi həqiqətlərin bədii planda əks etdirilmə səviyyəsi müqayisəli şəkildə təhlil süzgəcindən keçirilmişdir. Dissertasiyanın nəzəri əhəmiyyəti onunla şərtlənir ki, tarixi mövzulu, müxtəlif janrlı bədii nümunələrdə tarixiliyi şərtləndirən konkret məqamlar diqqət mərkəzinə çəkilməklə, tarixi nəsr, tarixi dram, tarixi poema və s. istiqamətlərdə ədəbiyyatşünaslıqdakı fərqli fikirlər ümumiləşdirilərək dəyərləndirilmişdir. Dissertasiyanın praktiki əhəmiyyəti onunla şərtlənir ki, tədqiqat işindən Axundovşünaslıq tədqiqatlarında, həm də tarixi nəsr, dramaturgiyaya aid araşdırmalarda elmi mənbə kimi istifadə oluna bilər. Həmçinin ali təhsil müəssisələrində Azərbaycan ədəbiyyatı üzrə aparılan xüsusi kurs və dərslərdə bu tədqiqat işi mənbə rolunu oynaya bilər.

**Aprobasiya və tətbiqi.** Dissertasiya işinin mövzusu 27 fevral 2018-ci ildə Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 16 may 2018-ci il tarixli (protokol №06) qərarı ilə təsdiq olunmuş, filologiya elmləri doktoru Fərman Yunis oğlu Xəlilov elmi rəhbər təyin edilmişdir. 16 may 2018-ci ildə isə mövzu Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirməsi Şurasının Filologiya Problemləri üzrə Elmi Şurasında (protokol №5) qeydiyyata alınmışdır.

Dissertasiya ilə bağlı müəllifin "Naxçıvan" Universitetinin "Elmi əsərlər", Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər", Gəncə Dövlət Universitetinin "Elmi xəbərləri", AMEA Əlyazmalar İnstitunun "Filologiya məsələləri", Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin "Axtarışlar" elmi jurnallarında, həmçinin Ujqorod Beynəlxalq Universitetinin jurnalında məqalələri nəşr olunmuşdur. Müəllif Gənc alimlərin III Beynəlxalq elmi konfransında (Gəncə Dövlət Universiteti, 2018) "M.F.Axundzadənin ədəbi-tənqidi görüşləri", Azərbaycanşünaslığın Aktual Problemləri X Beynəlxalq konfransında (Bakı Slavyan Universiteti, 2019) "Şəfaət Mehdiyevin "Mirzə Fətəli" pyesində M.F.Axundzadə obrazı", Gənc alimlərin IV Beynəlxalq elmi konfransında (Gəncə Dövlət Unuiversiteti, 2019) "Çingiz

Hüseynovun “Fətəli fəthi” romanında M.F.Axundzadə obrazı”, “Naxçıvan: Mədəniyyətlərin qovuşduğu məkan” Beynəlxalq elmi konfransında (“Naxçıvan” Universiteti, 2020) “Ş.Mehdiyev “Mirzə Fətəli”, A.Mədətov “İdrak işığında” əsərlərində Axundzadənin əlifba layihəsinin təsviri” mövzularında çıxışlar etmiş, konfransın toplularında materialı nəşr olunmuşdur. Eyni zamanda müəllif “The attitude of Akhundzade image to the West in the artistic works” mövzusu ilə Qazax milli Pedaqoji Universitetində (2021) və “Features of M.F.Akhundzade’s character in Chingiz Huseynov’s novel of “Feteli fathi”” mövzusu ilə İsveç Krallığının Stokolm şəhərində keçirilən XXI Beynəlxalq Elm Simpoziumda (2021) çıxış etmişdir.

Ümumilikdə, müəllifin 18 əsəri dərc olunmuşdur ki, onlardan 15-i Azərbaycanda, 3-ü isə xaricdə çap edilmişdir. Azərbaycanda çap olunan elmi əsərlərdən 11-i müxtəlif jurnal, 4-ü isə konfrans materialıdır. Xaricdə çap edilən əsərlərdən 2-si beynəlxalq konfrans materialı, biri isə elmi jurnalda nəşr olunan məqalədir.

Dissertasiyanın məzmununu əhatə edən məqalə, konfrans materialı və tezislər Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi ölkə və xarici elmi jurnallarında dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin “Azərbaycan dili və ədəbiyyatı” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya işi “Giriş”, 3 fəsil, “Nəticə” və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın “Giriş hissəsi” 7 səhifə -12050 işarə, I fəsil 65 səhifə -99427, II fəsil 44 səhifə -82940 işarə, III fəsil 44 səhifə -82343 işarə, “Nəticə” 2 səhifə 3066 işarə olmaqla işin ümumi həcmi istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 167 səhifə-267776 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat işinin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, eləcə də dissertasiyanın aprobasiyası haqqında məlumat verilir.

Birinci fəsil **"M.F.Axundzadə: ədəbi-tənqidi görüşləri və Azərbaycan poeziyasında obrazı"** adlanır və üç paraqrafdan ibarətdir. **"1.1. M.F.Axundzadənin ədəbi-tənqidi görüşləri"** adlı paraqrafda Azərbaycan ədəbiyyat tarixində yeni bir mərhələnin banisi olan Mirzə Fətəli Axundzadənin tənqidi görüşləri sistem halında verilmiş, tezislərə yeni təfəkkür işığında yanaşılaraq təhlil edilmiş, bir çox ədəbiyyatşünasların Axundzadənin tənqidi fikirlərinə münasibəti diqqət mərkəzinə çəkilmişdir.

"Yek kəlmə haqqında", "Kəmalüddövlə məktubları", "Həkimi-ingilis Yuma cavab", "Molla Ələkbərlə mübahisə", "Fehiristi-kitab", "Xitab bər katib", "Xitab bər naqil", "Nəzm və nəsr haqqında", "Mirzə ağanın pyesləri haqqında kritka", "Mollayi-Ruminin və onun təsnifinin babında", "Yüksək İranın "Millət" qəzeti münşisinə kritka", "Yek kəlmə haqqında", "Con Stüart Milli-azadlıq haqqında", "Məhərrəmlik təziyədarlığı haqqında", "Babilik əqidələri", "Məsəli-həkimi Sismond" [4] və s. kimi M.F.Axundzadənin məqalə və məktubları ədəbi-nəzəri fikirimizi zənginləşdirən dəyərli mənbələr sırasındadır. M.F.Axundzadənin ədəbi-tənqidi fikirləri olduqca dolğun və əhatəlidir. Ədəbi-tənqidi görüşlərinin əks olunduğu bu əsərlər elmi xarakterə malik, sistemli əsərlərdir.

M.F.Axundzadənin ədəbi-tənqidi görüşlərinin formalaşmasında rus, Avropa mütəfəkkirlərinin rolu danılmazdır. O, Avropa, dünya klassiklərinin əsərləri, ədəbi-fəlsəfi görüşləri ilə yaxından tanış idi, Lermantovu, Şekspiri, Molyeri, Spinozanı, XVIII əsr fransız materialistlərini, Volteri, Boklı, Çernışevskini və s. kimi dövrünün məşhurlarının əsərlərini mütaliə etmişdi. Teatrşünas Cəfər Cəfərov bu

---

[4] Axundzadə F.T Seçilmiş əsərləri: [3 cilddə] / M.F.Axundzadə.–Bakı: Şərq-Qərb, – c. 2.–2005,–376 s.

haqda yazırdı: "*Rusiyaya ilhaq tarixindən sonra canlanan yeni Azərbaycan mədəniyyətinin ən görkəmli yaradıcılarından biri olan Axundov milli mədəniyyətimizin mahiyyət və ənənələrinə böyük qayğı göstərməklə bərabər, Avropa mədəniyyəti nümunələrindən çox cəsarətlə istifadə edir və bu yolda öz zəhmət və bacarığını əsirgəmirdi*"[5].

M.F.Axundzadənin ictimai-siyasi məsələlərə münasibəti, ictimai həyatın canlanması yolunda göstərdiyi səylər və bu canlanma ilə bağlı məqalələrindəki qeydlər elmi müstəvidə dəyərləndirilmişdir.

M.F.Axundzadənin olduqca maraqlı, orijinallığı ilə seçilən mülahizələri tənqidşünaslığın bazasının formalaşmasında əhəmiyyətli rol oynamışdır.

**"1.2. Azərbaycan şeirində Mirzə Fətəli obrazı"** paraqrafında M.F.Axundzadə obrazının yaradıldığı şeirlər tədqiqata cəlb olunmuş, onların müxtəlif aspektlərdən təhlili aparılmışdır. Qeyd etmək lazımdır ki, M..F.Axundzadənin orijinal və yeni janr nümunələri olan əsərləri, elmi-nəzəri fikirləri və ziddiyyətli həyatı bir çox şairlərin diqqətini çəkmişdir. Onun hələ sağlığında obrazı bədii ədəbiyyata gətirilmişdir.

M.F.Axundzadənin sağlığında Qasım bəy Zakir[6], Cəfərqulu xan Nəva, Molla Abbas Axundzadə, Mirzə Məhəmməd Katib[7] ədibin bədii obrazını yaratmışdır.

Q.Zakirin şeirində onun M.F.Axundzadə üçün narahat olduğunu görürük, o bu nümunələrdə Qarabağın və özünün taleyini M.F.Axundzadəyə danışır. Daha sonrakı şeirlərində Q.Zakir M.F.Axundzadənin ona və ailəsinə köməyindən söz açaraq onun şəxsiyyətini tərif edir.

Cəfərqulu xan Nəvanın şeirində M.F.Axundzadədən və onun əlifba layihəsindən söz açılır. Cəfərqulu xan bu layihəni yüksək qiymətləndirməklə yanaşı, mövcud cəhaləti və fanatizmi pisləyir. Bu

---

[5] Cəfərov C.Ə. Axundov və teatr // Cəfərov C.– Bakı: Renessans-A nəşriyyatı,– 2016.–128 s.

[6] Zakir Q.Ə. Əsərləri / Q.Zakir. –Bakı: –Azərbaycan dövlət nəşriyyatı,– 1953.– 479 s.

[7] Əsgərov S.M. Azərbaycan ədəbiyyat qaynaqları / Salman Mümtaz.– Bakı: – Avrasiya press,– 2006. – 440 s.

mənfiliklərlə mübarizədə Axundzadənin layihəsini əsas vasitələrdən biri kimi qeyd edir. Cəfərqulu xan M.F.Axundzadənin şəxsiyyətini də yüksək qiymətləndirmişdir ki, bu kimi məqamlar diqqət mərkəzinə çəkilir.

Molla Abbas Axundzadənin adsız müxəmməsində M.F.Axundzadə obrazı canlı və şux təsvir olunmuşdur. Müəllif Axundzadənin pisliklərdən, yalan və hiylədən uzaq olduğunu yazır. Müəllif həmçinin cəmiyyətin M.F.Axundzadəyə mənfi münasibətdə olduğunu, M.F.Axundzadənin bu münasibətdən cana gəldiyini qeyd edir.

M.F.Axundzadə obrazını şeirə gətirən Mirzə Məhəmməd Katib onun şəxsiyyətini yüksək qiymətləndirmiş, onu "şairlərin piri", "ariflərin sultanı", "aşiqlərin dərdinin dərmanı" adlandırmışdır.

XX əsrin 50-60-cı illərindən sonra M.F.Axundzadənin obrazını yaratmaq bir ənənə halını alır. Əli Kərim, Mirvarid Dilbazi, Tofiq Mahmud, Süleyman Rüstəm, Atif Zeynallı, Balaş Azəroğlu, Adil Babayev, Bəxtiyar Vahabzadə, Hüseyn Razi və s. şairlər öz şeirlərində M.F.Axundzadənin obrazını yaratmışdır.

Adı çəkilən şeirlərdə M.F.Axundzadənin həyatı, dünyagörüşü, yaradıcılığı parlaq lövhələrlə əks olunmuşdur. Şeirlərdə həmçinin onun çarizmə və fanatizmə, eyni zamanda elmə və cəmiyyətə münasibəti əks olunmuşdur. Şeirlərdə mətnaltı mənalarla Axundzadənin azadlıq ideyaları da diqqət mərkəzinə çəkilmişdir.

Fəslin **"1.3. M.F.Axundzadə obrazı poemalarda: epik vüsət və poetik qiymət**" adlı paraqrafında M.F.Axundzadə haqqında yazılan poemalar təhlil olunmuşdur. Axundzadə obrazının yaradıldığı poemalara Hüseyn Hüseynzadənin "Ürəklər birləşəndə"[8], Süleyman Rüstəmin "Səbuhini düşünərkən"[9], Tofiq Mahmudun "Oyan, Fətəli, oyan"[10], Nəriman Həsənzadənin "Zümrüd quşu"[11] və s. daxildir.

---

[8] Hüseynzadə H.C. Seçilmiş əsərləri/Hüseynzadə H.‒Bakı: Azərnəşr,‒1975.‒283 s.

[9] Rüstəmzadə S.Ə Seçilmiş əsərləri: [3 cilddə] / Süleyman Rüstəm, ‒Bakı: Şərq-Qərb,‒ cild 2.‒ 2005. ‒ 327 s.

[10] Mehdiyev T.M. Kəpənək gözəlliyi / Tofiq Mahmud.‒Bakı: Gənclik,‒ 1980.‒ 179 s.

[11] Həsənzadə N.Ə. Seçilmiş əsərləri: [7 cilddə] / Həsənzadə N. ‒Bakı: Prometey, ‒ c. 2.‒ 2010.‒ 742 s.

Poemalarda M.F.Axundzadənin həyatı, dünyagörüşü və müasirləri ilə münasibəti nisbətən geniş lövhələrlə oxucuya çatdırılmışdır.

Hüseyn Hüseynzadənin “Ürəklər birləşəndə” poemasında M.F.Axundzadənin materialist dünyagörüşündən, müasirləri ilə (A.Bakıxanov, Bestujev Marlinski və s.) münasibətindən danışılır. Poema M.F.Axundzadənin həyatının 3 ilini (1834-1837) əhatə edir. Burada hadisədən çox fikirlər ön plana çıxır. Əsərdə obrazın ictimai-siyasi məsələlərə, çar hökumətinin despot idarəetməsinə, xalqın maariflənməsinə münasibəti olduqca maraqlıdır. Poemada Tiflisin geniş tərifi verilmiş, bu şəhərin M.F.Axundzadənin həyatında çox böyük rol oynadığı qeyd olunmuşdur. Tiflis Şərqlə Qərbin qovuşağı kimi göstərilmiş, M.F.Axundzadənin də Şərqə və Qərbə münasibəti bu hissədə verilmişdir.

Tiflisdə yaşayan M.F.Axundzadə öz doğulduğu yerləri, oradakı cəhaləti xatırlayaraq iztirab çəkir. Onun iztirabını azaldan ancaq gələcəyə olan inamıdır. Müəllif Axundzadənin daim ümidli olduğunu qeyd edir.

Poemada M.F.Axundzadə şeir, sənət, musiqi vurğunu kimi oxucuya təqdim olunur. Aşıq şeiri obrazın həyatında xüsusi yer tutur. Tez-tez məclislərdə iştirak edən M.F.Axundzadə el aşıqlarını dinləmək üçün can atır.

Poemada M.F.Axundzadənin Molla Pənah Vaqifə olan müsbət münasibətini də görmək mümkündür. Bununla yanaşı, Hüseyn Hüseynzadə obrazın A.S.Puşkinin ölüm xəbərinə reaksiyasını, “Şərq poeması”nı qələma almasını bədii şəkildə oxucuya çatdıra bilir.

Süleyman Rüstəmin “Səbuhini düşünərkən” poeması M.F.Axundzadə haqqında yazılmış maraqlı nümunələrdən biridir. Bu poemada M.F.Axundzadənin dövrü, mühiti ilə də yaxından tanış olmaq mümkündür. Müəllif obrazı öz dövrünə görə qiymətləndirir, onun uzaqgörənliyi, xalqın dərdini ürəyində gəzdirməsi Səbuhini onun üçün ən ali insana çevirir.

Poemada M.F.Axundzadənin iki əsas qüvvəyə qarşı mübarizə aparması vurğulanır. Bunun biri çarizm, digəri isə cəhalət və fanatizm idi. Zəmanə də öz işini görür. Azadlıq haqqında düşünməkdən bir gün belə əl çəkməyən M.F.Axundzadə buna görə zəmanəyə şikayətlənir.

Poemada qısaca M.F.Axundzadənin Füzuliyə münasibəti də qeyd olunmuşdur. Müəllif M.F.Axundzadənin bu fikirlərini məqsədli dediyi qənaətindədir.

Tofiq Mahmudun "Oyan, Fətəli, oyan!" poeması M.F.Axundzadə haqqında yazılmış maraqlı poemalardan biridir. Poema əsasən M.F.Axundzadənin uşaqlıq dövrünü əhatə edir. Lakin müəllif onun duyğu və düşüncələrini, gələcəklə bağlı xəyallarını oxucuya çatdıra bilir.

Əsər Fətəli və anasının Cənubi Azərbaycanın Xaminə qəsəbəsindən Nanə xanımın əmisi Axund Ələsgərin yanına köçməsini təsvir edir. Bu zaman ailədə baş verən problemlər sadalanır. Nanə xanımın xəstələnməsi, günüsü ilə yola gedə bilməməsi, Məmməd Tağının oğlunun getməsinə icazə verməməsi, ananın və Fətəlinin israrı və s. epik-lirik planda əks olunmuşdur.

Əsərin sonunda polkovnik M.F.Axundzadənin kəndlərinə yenidən gəlməsi, bacılarını görməsi təsvir olunur. Bacısı Səkinənin Fətəli haqqında düşüncələri də maraqla qarşılanan məqamlardandır. Qeyd edək ki, bu kimi məqamlar müəllifin təxəyyül imkanlarının genişliyindən xəbər verdiyi kimi, şəxsiyyətə mühitin, dövrün münasibətini öyrənmək baxımından da əhəmiyyət daşıyır.

Nəriman Həsənzadənin "Zümrüd quşu" poemasında epizodik olsa da, M.F.Axundzadənin obrazı diqqəti cəlb edir. Əsər Qafqaza sürgün edilən böyük rus şairi A.S.Puşkinin buradakı insanlarla münasibətini əks etdirir. Hadisələr əsasən A.S.Puşkinin və A.Bakıxanovun ətrafında cərəyan edir. Əsərdə A.Bakıxanov, Fazil xan Şeyda, M.F.Axundzadə kimi şəxslərlə A.S.Puşkin arasındakı münasibətlər, dövrün ictimai-siyasi vəziyyəti aparıcı yer tutur.

Poemada M.F.Axundzadə obrazına çox az yer verilmiş, onun şəxsi keyfiyyətlərinə, düşüncələrinə yer ayrılmasa da, A.S.Puşkinə yazdığı poema ilə həm yaradıcılığının, həm də düşüncələrinin gücü və aliliyi vurğulanmışdır.

**Dissertasiyanın II fəsli "Azərbaycan bədii nəsrində Mirzə Fətəli Axundzadə obrazi"** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. **"M.F.Axundzadə obrazı roman, povest və hekayələrdə"** paraqrafında M.F.Axundzadə haqqında yazılan romanlar, povestlər və hekayələr təhlil olunmuş, Axundzadə obrazının bədiiliyi və tarixiliyi

haqqında mülahizələr irəli sürülmüşdür.

M.F.Axundzadə haqqında yazılmış "Fətəli fəthi"[12] (Çingiz Hüseynov) əsəri obrazın təsviri, hadisələrin əhatəliliyi, elmiliyi, bədiiliyi, tarixiliyi və həcmi baxımından seçilir.

Roman həm dövrün ziddiyyətlərini, həm də M.F.Axundzadənin həyat və yaradıcılıq yolunu oxucu üçün açır. Burada hətta M.F.Axundzadədən əvvəlki, XVII əsrin sonu, XVIII əsrin əvəlləri də təsvir edilir. Müəllif hadisələrə zəmin hazırlamaq üçün hətta A.Bakıxanovun dilindən "Gülüstan", "Türkmənçay" müqavilələrini də nəql edir.

Romanda M.F.Axundzadə və onun dövrü haqqında verilən ətraflı məlumatlar, qeydlər, faktlar, sənədlər əsərin gərgin əməyin məhsulu olduğunu göstərir. Roman tarixi mövzuda olduğundan əsərdə tarixi faktlar olduqca çoxdur, lakin yazıçı təxəyyülünün ortaya çıxardığı məsələlər də az deyil. Buna görə də müəllif öz əsərini "sənədli fantaziya romanı"[13] adlandırır.

Romanda M.F.Axundzadənin müasirləri ilə münasibətinə də geniş yer verilmişdir. Həm azərbaycanlı ədiblər, həm də rus və avropalı ədiblərlə M.F.Axundzadənin münasibəti maraqla qarşılanır. Mirzə Şəfi Vazeh, Xasay Xan Usmiyev, A.Bakıxanov, Bestujev Marlinski, Mixail Lermantov, Aleksandr Odoyevski və s. M.F.Axundzadə ilə yaxın münasibətdə olan ədiblər idi. Onun müasirləri ilə dialoqları zamanı bir çox məsələyə-elmi, bədii, siyasi və ictimai məsələlərə mövqeyi, münasibəti ortaya çıxırdı. Məsələn, Xasay xanla M.F.Axundzadə arasında keçən dialoqda onun İsmayıl bəy Qurtqaşınlının fransızca yazdığı "Rəşid bəy və Səadət xanım" əsərinə münasibətini görürük. Obraz əsəri yüksək qiymətləndirməklə yanaşı, onu "milli ədəbiyyatda ilk romantik nəsr əsəri" adlandırır.

Romanda M.F.Axundzadənin dövlət qulluğunda çalışması, etdiyi xidmətlər də xüsusi qeyd olunur. O, mütərcim kimi işləməklə yanaşı, siyasi əqidəsi və düzgün yanaşmaları ilə də maraq doğurur. Məsələn, dağlılara yazılan məktubun çox sərt üslubda yazıldığını,

---

12 Hüseynov Ç.H.  Fətəli fəthi / Hüseynov Ç.–Bakı: Yazıçı, –1986.–709 s.

13 Hüseynov Ç.H. Əziz həmvətənlərim // Ədəbiyyat və incəsənət. ,–1988, 4 noyabr. – s. 3.

bunun nəticəsinin ağır olacağını əvvəldən görür və deyir. Lakin məktubun məğzi dəyişmir və nəticə M.F.Axundzadənin düşündüyü kimi olur.

M.F.Axundzadə obrazını ədəbiyyata gətirən müəlliflərdən biri də Əlisa Nicatdır. Onun "Gəncəli müdrik"[14] əsəri M.Vazehin həyat və yaradıcılığına həsr olunmuş tarixi romandır. Romanda M.F.Axundzadə tip səviyyəsinə qaldırılmasa da, onun həyatı, yaradıcılığı və dünyagörüşü barədə müəyyən məlumatlar verilmişdir.

Qeyd etmək lazımdır ki, roman fərqli illərdə üç fərqli adda çap olunmuşdur. Bu əsərlərin biri digərinin daha təkmilləşmiş variantıdır. Həç üç roman haqqında tədqiqatçılar müəyyən fikirlər irəli sürmüşlər. Yavuz Axundlu, Mirzə İbrahimov, Bəkir Nəbiyev, Akif Hüseynov kimi tənqidçilər əsərin daha çox janr xüsusiyyətləri ilə bağlı fikir bildirmişlər.

Məhərrəm Zaman da M.F.Axundzadənin obrazını ədəbiyyata gətirən yazıçılardan biridir. Burada obrazın əhatəli şəkildə təsviri verilməsə də, onunla bağlı müəyyən məsələlər diqqət çəkir. Hər iki obraz arasında yaxşı əlaqələr formalaşmış, qarşılıqlı hörmət və dostluq münasibətləri mövcud olmuşdur. Əsərdə M.F.Axundzadə ən çıxılmaz hallarda xatırlanır. Mirzə Fətəli bütün hallarda üzərinə düşən çətin və qorxulu vəzifələrin öhdəsindən qətiyyətlə gəlir.

Çingiz Hüseynovun M.F.Axundzadənin həyatı və yaradıcılığını əks etdirdiyi "Labüdlük"[15] povesti də olduqca maraq doğurur. Povestə M.F.Axundzadənin yaradıcılığı, əlifba layihəsi, monarxiyaya və fanatizmə qarşı mübarizəsi epik planda canlandırılır.

Povestdə M.F.Axundzadənin müasirləri ilə münasibətlərinə və şəxsi taleyinin təsvirinə də rast gəlmək mümkündür. Müəllif obrazı xalqın dərdinə yanan əsl ziyalı kimi təqdim etmiş, bu yanğını onun düşüncələrində dostları ilə söhbətlərində oxucuya çatdırmışdır.

Şükürov Sadiqin "Yox, cənab Axundzadə"[16] hekayəsi də M.F.Axundzadə obrazının yaradıldığı maraqlı əsərlərdəndir. Əsərin

---

[14] Hüseynov Ə.Q. Gəncəli müdrik / Əlisa Nicat.–Bakı: KitabKlubu.org,– 2018.– 334 s.

[15] Hüseynov Ç.H. Labüdlük / Hüsynov Ç. Moskva: Politizdat, – 1983. – 128 s.

[16] Şükürov S.C. Yox, cənab Axundzadə // Ədəbiyyat və incəsənət.–1988, 28 oktyabr.–s. 4-5.

arxiv sənədlərindən istifadə edilərək yazıya alındığını, hekayədə M.F.Axundzadənin həyatı və yaradıcılığı haqda faktların ortaya qoyulduğunu görürük ki, bu da tarixiliyi şərtləndirən güclü məqam kimi qiymətləndirilməlidir.

Dövrün ziddiyyətlərini, mövcud ideologiyanı görmək baxımından da əsər qiymətlidir. Despot idarəetmə, fanatizm və cəhalətə qarşı mübarizə əsərin ruhunu təşkil edir.

M.F.Axundzadə və Bayratinski arasında gedən dialoq əsərin ən maraqlı yeri olmaqla yanaşı, əsərin ideyasını da açır. Ordubadlıların A.S.Puşkinə heykəl qoydurmaq üçün ərizə yazmaqları Bayratinskini özündən çıxarıb, M.F.Axundzadəni yanına çağıraraq onların bu cəsarəti hardan və kimdən aldıqlarını soruşur. M.F.Axundzadə bu xəbərə sevinir, onları müdafiə edir və çarı, onun ideologiyasını sərt tənqid edir.

Yazıçı Faiq Mustafayevin "Mən işığa gedirəm" povesti M.F.Axundzadənin dövrünün və şəxsiyyətinin öyrənilməsi baxımından olduqca əhatəli bədii nümunə kimi diqqəti cəlb edir.

**"2.2. M.F.Axundzadə obrazının bədii təcəssümü: epoxa və şəxsiyyət"** paraqrafında M.F.Axundzadə obrazının yaradıldığı əsərlər geniş şəkildə təhlil olunmuş, ümumiləşmələrdən doğan qənaətlər tarixi qaynaqlara, ədəbi-nəzəri fikrə istinadən təhlil müstəvisinə çəkilmişdir. Əsərlərdə bədiilik və tarixilik, dövrün mənzərəsi, M.F.Axundzadənin dünyagörüşü və düşüncələri, münasibət və əlaqələri şərh edilmiş, sənədlər əsasında verilən faktlar ortaya çıxarılmışdır. M.F.Axundzadə obrazının yaradıldığı əsərlərin əksəriyyətində ortaq yanaşmalar və fərqliliklər olduqca çoxdur. Bu əsərlərdə obrazın təcəssümü, müəlliflərin yanaşma tərzindən, peşəkarlıq səviyyəsindən asılı olaraq dəyişir.

Bu paraqrafda M.F.Axundzadənin həyatının, dostaları və müasirləri ilə əlaqələrinin təsvirinə geniş yer ayrılmış, obrazın fərqli əsərlərdə oxşar və fərqli cəhətlərinə, obrazın bədii təcəssümünə, tarixilik prinsipinin qorunması səviyyəsinə nəzər yetirilmişdir.

M.F.Axundzadə haqqında yazılan əsərlərdə obrazın əsas cəhətlərindən biri qətiyyət və yardımsevərlikdir. Obrazın bu xüsusiyyəti demək olar ki, formasından asılı olmayaraq bütün bədii əsərlərdə eynidir. Q.Zakir, Ə.Kərim, N.Xəzri, B.Vahabzadə,

M.Dilbazi və s. şairlərin şeirlərində, H.Hüseynzadənin, S.Rüstəmin, T.Mahmudun poemalarında, Ç.Hüseynovun, Ə.Nicatın romanlarıda, Ə.Haqverdiyevin, Şəfaət Mehdiyevin dramlarında onun bu xüsusiyyətini görmək mümkündür.

M.F.Axundzadə obrazının yaradıldığı bütün əsərlərdə müəlliflər şəxsiyyət amili üzərində düşünmüş, adı çəkilən tarixi şəxsiyyəti real cizgilərlə canlandırmağa çalışmışlar. Bunun üçün M.F.Axundzadə tarixi şəxsiyyət kimi yaxşı öyrənilmiş və bu əsərlərdə düzgün yanaşmalar, tarixi faktlar qeyd edilmişdir. Ədəbiyyatşünas, mərhum professor Y.Axundlu "Fətəli fəthi" əsərində şəxsiyyətin araşdırılması haqda yazır: "*Ədib M.F.Axundzadənin dövrünü, mühitini, həyatını şəxsiyyətini, yaradıcılığını bir daha dərindən öyrənmiş, bu sətirlərin müəllifinə yazdğı məktubda da etiraf etdiyi kimi;* "*düz on il material toplamış", arxivlərdə çalışaraq çoxlu rəsmi sənədləri üzə çıxarmışdır*"[17].

M.F.Axundzadənin cəhalətə, fanatizmə münasibəti də bir çox bədii əsərlərdə eynidir. O, cəhaləti ən böyük düşmən kimi qəbul etmiş və daim onunla mübarizə aparmışdır. Cəhalətin kökündə dayanan səbəbləri axtaran obraz fanatizmi bunu doğuran səbəblərdən biri kimi görür. Ancaq tək səbəb bu da deyil, çarizmin yanlış idarəetməsi, müstəmləkə siyasəti də cəhaləti körükləyir. Köhnədən qalan və oxuyub, yazmağı çətinləşdirən ərəb qrafikalı əlifba da maarifin önündə duran əsas problemlərdəndir. M.F.Axundzadə obrazının yaradıldığı əsərlərin böyük bir qismində onun əlifbanın dəyişdirilməsi və sadələşdirilməsi uğrunda mübarizəsi də geniş əks olunmuşdur.

Əsərlərdə sənədlərin verilməsi və onların süjetə uyğunlaşdırılaraq qeyd olunması da sənədliliyin qorunması baxımından önəmlidir. Sənədlərin sıx olduğu əsərlərdən "Fətəli fəthi", "Brüsseldən məktublar", "Yox, cənab Axundzadə" adlarını çəkmək olar ki, bu əsərlər daha çox tədqiqata cəlb olunmuşdur.

**Disseratsiyanın III fəsli "M.F.Axundzadə obrazı Azərbaycan dramaturgiyasında"** adlanır və iki paraqrafdan ibarətdir.

---

[17] Axundlu Y.İ. Seçilmiş əsərləri: [3 cilddə] / Axundlu Y.–Naxçıvan: Əcəmi nəşriyyatı,–c. 2.–2003.– 447 s.

**“3.1. Azərbaycan dramaturgiyasında M.F.Axundzadə obrazının bədii təcəssümü”** paraqrafında Axundzadə obrazının yaradıldığı dram əsərləri təhlil olunmuşdur. Bu əsərlər Ə.Haqverdiyevin “Xəyalat”, Ş.Mehdiyevin “Mirzə Fətəli”, A.Mədətovun “İdrak işığında” və N.Qazinin “Sabah adamı” dramlarıdır.

1911-ci ildə M.F.Axundzadənin 100 illik yubileyi münasibətilə qələmə alınan “Xəyalat” əsəri M.F.Axundzadə obrazının yaradıldığı ilk dram əsəridir. Əsərdə müəllif daim nadanlarla, cahillərlə mübarizə aparan və haqsızlıqlar əlindən cana gəlmiş tipik Azərbaycan ziyalısının obrazını yaratmışdır.

Ə.Haqverdiyev M.F.Axundzadəni Molla İbrahimxəlil, Məstəlişah, Hacı Qara və b. obrazlarla qarşılaşdıraraq onun şəxsiyyətini açır. Bu obrazlar M.F.Axundzadənin öz qələmindən çıxan obrazlardır və onlar M.F.Axundzadəni “yalan dediyi üçün” ittiham edirlər.

Müəllif M.F.Axundzadəni təmkinli və mülayim bir obraz kimi göstərməyə çalışır. Belə ki, adları çəkilən obrazlar nə qədər sərt və sadəlöhvdürsə, M.F.Axundzadə bir o qədər qətiyyətli, xeyirxah və bir o qədər təmkinlidir.

Tənqidçi Həsənəli Eyvazlı M.F.Axundzadənin öz tipləri ilə qarşılaşdırılmasının səbəbini bu cür izah edir: “*Pyesdəki obrazlar M.F.Axundzadənin öz tipləridir. Müəllif pyesdə Axundzadənin hansı dövrdə, necə çətinliklərlə üzləşərək yazıb-yaratdığını önə çəkməyə çalışmışdır*”[18].

Bütün obrazlar öz xarekterlərindəki zəif cəhətləri biruzə verməklə cəmiyyətin problemlərinin daşıyıcısına çevrilirlər. Hadisələr adları çəkilən obrazlar ətrafında baş versə də, onların timsalında bütün mənfiliklər tənqid olunur.

Yeniliyə qapalı Hatəmxan ağa, Hacı Qara, Məstəlişah və s. obrazlarla, yeniliklərin labüdlüklərini dərk edən M.F.Axundzadə arasındakı dərin konfilikt əsəri daha da oxunaqlı edir. Məsələn Hatəmxan ağanın “Rus adətlərinə” mənfi münasibəti və

[18] Eyvazlı H.C. Tarixi dramlarda ədəbi şəxsiyyət obrazı / Eyvazlı H. – Naxçıvan: Məktəb, – 2009. – 186 s.

M.F.Axundzadəni bu adətlərin tərəfdarı kimi ittiham etməsi olduqca maraqlı epizodlardandır. Ancaq görürük ki, Hatəmxan ağanın dediyi adətlər fanatizmin doğurduyu yanlış inanc və adətlərdir. Obrazın dilindən verilən bu ittihamlar və M.F.Axundzadənin təmkin və qətiyyətli cavabları olduqca maraqlıdır.

Şəfaət Mehdiyevin "Mirzə Fətəli" pyesi M.F.Axundzadə obrazının yaradıldığı maraqlı dramlardan biridir. Pyes ilk dəfə "Azərbaycan" jurnalında çap edilmişdir. 3 pərdə, 13 şəkildən ibarət pyes M.F.Axundzadənin həyatı, yaradıcılığı, dünyagörüşü, əlaqələri, dövrün ictimai-siyasi vəziyyətinin öyrənilməsi baxımından dəyərlidir.

Mirzə Şəfi Vazehin monoloqu və şeirləri ilə başlayan pyes M.F.Axundzadənin həyatının geniş bir dövrünü əhatə edən bitkin bir əsərdir.

Pyesdə iştirak edənlər M.F.Axundzadənin ailəsi və müasirləridir. Burada M.F.Axundzadə və müasirlərinin dioloqaları obrazın xüsusiyyətinin açılmasında müstəsna rol oynayır.

Əsərdə M.F.Axundzadənin əxlaqi keyfiyyətləri ön plana çəkilmiş, onun alicənablığı, əlaçıqlığı, humanistliyi maraqlı epizodlarda bədiiləşdirilmişdir. Məsələn, epizodların birində həyətə gələn dilənçiyə M.F.Axundzadə tərəfindən bir xalça bağışlanır.

Əsərdə maraq doğuran başqa bir məsələ də Zakirin şeirlərini M.F.Axundzadəyə oxumasıdır. Hansı ki, bu şeirlər məktub şəklində yazılaraq M.F.Axundzadəyə göndərilə bilərdi.

Müəllif əsərdə M.F.Axundzadənin öz ailəsinə münasibətini də diqqət mərkəzində saxlayır. M.F.Axundzadə ailəsinə qarşı diqqətli və ədalətlidir. Tubu xanımın oxumaması ona təsir edir. Ümumiyyətlə, obraz qadınların oxumasının vacibliyini qeyd edir. Qadın azadlığı, qadın hüquqlarının bərpası üçün bunu ilkin şərt kimi irəli sürür.

Əsərdə təsvir olunan Şeyxülislam obrazı da olduqca maraq doğurur. Müəllif bu obrazı tamamilə mənfi planda vermiş, fanatizmin bayraqdarı kimi təsvir etmişdir. Ancaq tarixi sənədlərdən də görürük ki, Şeyxülislam M.F.Axundzadənin yaxın dostu olmuş, bir çox məsələdə, o cümlədən, əlifba layihəsi məsələsində ona dəstək olmuşdur. Bir neçə məktubda (Zakirin, Xasay xan Usmiyevin) müəlliflər Şeyxülislama M.F.Axundzadə ilə salam göndərirlər.

“İdrak işığında” (Arif Mədətov)[19] tarixi dram adlandırılsa da, müəllifin hadisələrdən daha çox təxəyyül gücünə üstünlük verdiyini görürük. Müəllif oxucuya daha çox M.F.Axundzadənin daxili aləmi, düşüncələrini çatdırmışdır. Əsərdə eyni zamanda obrazın birliyə, millətin tərəqqisinə, dini fanatizmə və xurafata, sənətə, musiqiyə, rəqsə münasibəti fərqli situasiyalarda qabardılır.

Həmçinin M.F.Axundzadə haqqında yazılan bir çox əsərlərdən fərqli olaraq onun dini görüşləri daha yumuşaq verilmiş, dinin cəmiyyətin həyatında mütərəqqi yerə sahib olduğu, onun fanatizmə keçdiyi zaman təhlükəli hal aldığı vurğulanmışdır.

Dramda M.F.Axundzadənin komediyalarının səhnələşdirilməsi tarixindən, əsərlərinin səhnə taleyindən də danışılmış, yazışmalar və tarixi faktlar obrazların dilindən verilmişdir ki, bu da dinamizmi artıran məqam kimi diqqəti cəlb edir.

M.F.Axundzadə haqqında yazılan, tarixiliyin və faktların çoxluğu ilə seçilən dramlardan biri də Həsən Həsənovun “Brüsseldən məktublar” əsəridir. Əsər M.F.Axundzadənin həyatının az bir dövrünü əhatə etsə də, onun dünyagörüşünü, düşüncə və münasibətlərini öyrənmək baxımından olduqca əhəmiyyətlidir.

Dramda tarixi məktublardan çox istifadə olunmuşdur. M.F.Axundzadə və oğlu Rəşidin məktublaşmaları əsərin əsasını təşkil edir. Bu məktublar ya olduğu kimi, ya da müəyyən dərəcədə dəyişdirilərək oxucuya çatdırılır.

Əsər M.F.Axundzadə və oğlu Rəşidin müzakirələri üzərində qurulsa da, bəzən bəşəri problemlər ortaya atılır. Bunu həll etmək isə hələlik mümkün deyil. Ata və oğulun arasındakı düşüncə fərqliliyi dövrün ziddiyyətlərini, Qərb və Şərqin arasındakı uçurumu göstərməyə xidmət edir.

Nazim Qazinin “Sabah adamı” M.F.Axundzadə haqqında yazılan dram əsərlərindəndir. Bir pərdəli bu dram həcmcə qısa olsa da, M.F.Axundzadənin həyatını, dünyagörüşünü əks etdirmək baxımından maraqlı struktura malikdir. M.F.Axundzadənin insani keyfiyyətlərini ön plana çəkən müəllif onu köləliyə, zülmətə, mövhumatçılığa və fanatizmə qarşı mübarizəsini də təsvir edir. Obraz

---

[19] Mədətov A.S. Şeytan /– Bakı: Çinar-çap,– 2008.–292 s.

bu mübarizənin sadəcə elmlə, maariflə əldə olunacağına inanır və buna böyük inam aşılayır.

**"3.2. M.F.Axundzadənin obrazı Azərbaycan səhnəsində"** paraqrafında M.F.Axundzadə obrazının səhnə taleyindən danışılmış, tamaşalar və filmlər araşdırılaraq sistemləşdirilmişdir.

1939-cu ildə ərsəyə gələn "Böyük maarifçi-yazıçı M.F.Axundov" filmi M.F.Axundzadə haqqında ilk filmdir. Film tarixi-bioqrafik janrda çəkilmişdir. Filmdə M.F.Axundzadənin həyat və yaradıcılığından bəhs olunmuş, onun həyatının Gəncə və Tiflis dövrləri tamaşaçıya təqdim edilmişdir. Əsərin ssenari müəllifləri Əbdül Həsənov və Əli Musayev olmuşdur.

M.F.Axundzadənin həyat və yaradıcılığından bəhs edən "Səbuhi" (1941) tam metrajlı filmi də onun obrazını tamaşaçı ilə yenidən görüşdürür. Bakı kinostudiyasında hazırlanan, M.F.Axundzadənin mübarizəsini əks etdirən bu filmin ssenari müəllifi Mikayıl Rəfili, rejissoru isə Rza Təhmasib olmuşdur.

"Azərbaycanfilm"in istehsalı olan "M.F.Axundov" tarixi bioqrafik filmi də M.F.Axundzadənin həyat və yaradıcılığını əks etdirən maraqlı nümunələrdən biri kimi maraq doğurur. 1962-ci il istehsalı olan bu film dahi mütəfəkkirin 150 illiyinə həsr olunmuşdur. Filmin ssenaristləri Əhmədağa Qurbanov, Məmməd Cəfər Cəfərov, rejissoru isə Niyazi Bədəlovdur.

"Mirzə Fətəli Axundov" (1972) sənədli filmi M.F.Axundzadənin həyat və yaradıcılığından, uşaqlıq və gəncliyini keçirdiyi Şəki, Gəncə dövründən, Tiflis mühitindən bəhs edir. Film üç şəhərdə çəkilmişdir.

Filmin ssenaristi Teymur Əhmədov, rejissoru Əli Musayevdir.

1982-ci ildə çəkilən eyniadlı "Mirzə Fətəli Axundov" sənədli bioqrafik filmi də görkəmli mütəfəkkirin həyat və yaradıcılığının öyrənilməsi baxımından olduqca maraqlıdır. Filmin rejissoru Cahangir Mehdiyev, ssenaristi Toğrul Cuvarlıdır.

Müstəqillik illərində M.F.Axundzadənin həyat və yaradıcılığına marağın artması ilə yanaşı, onun düşüncələrini azərbaycançılıq müstəvisində qiymətləndirmə ön plana çəkildi. 13 aprel 2010-cu il tarixli "Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"

M.F.Axundzadə irsinin araşdırılması, şəxsiyyətinin yaxından öyrənilməsi üçün əsas olmuşdur.

Sərancamdan sonra M.F.Axundzadə haqqında məqalələr, monoqrafiyalar, kitablar yazılmış, əsərləri tamaşaya qoyulmuş, eyni zamanda haqqında filmlər lentə alınmışdır.

Bu filmlərdən biri də 2010-cu ildə çəkilən "Sabahın elçisi. Mirzə Fətəli Axundzadə" filmidir. Filmdə M.F.Axundzadənin həyat və yaradıcılığından bəhs olunmaqla bərabər, onun əsərlərindən də istifadə olunmuşdur.

"Sübhün səfiri" filmi (2011) M.F.Axundzadənin uşaqlığından ölümünə qədərki dövrü əhatə edir. Filmin çəkilişləri Türkiyə və Azərbaycanda aparılıb. Türkiyədə əsasən onun əlifba layihəsi ilə bağlı səhnələr çəkilmişdir. Filmin ssenari müəllifi Anar, rejissoru Ramiz Həsənoğludur.

M.F.Axundzadə obrazının yaradıldığı dram əsərlərin səhnə taleyi də bu paraqrafda öz əksini tapır. M.F.Axundzadə obrazının teatr ilə ilk tanışlığı 1911-ci ildə "Xəyalat" əsəri ilə mümkün olur. Əsərin obrazlarını Nəcəf bəy Vəzirov, Həbib bəy Mahmudbəyov, İmran Qasımov kimi tanınmış şəxslər canlandırmışdır.

Nəbi Xəzrinin "Mirzə Şəfi" əsəri M.F.Axundzadə obrazını növbəti dəfə teatr səhnəsinə gətirir. Tamaşanın rejissoru Ağakişi Kazımov olmuşdur. Rollarda tanınmış aktyorlar çıxış etmiş, tamaşada M.F.Axundov obrazını Rafael Dadadşov canlandırmışdır.

M.F.Axundzadə obrazının yaradıldığı "Brüsseldən məktublar" əsəri 2003-cü ildə Naxçıvan Musiqili Dövlət Dram Teatrında tamaşaya qoyulur. Əsərin rejissoru tanınmış mədəniyyət xadimi Ramiz Həsənoğlu olmuşdur. M.F.Axundzadə obrazını Əliabbas Qədirov canlandırmışdır.

Dissertasiyanın **"Nəticə"** hissəsində fəsil və paraqraflarında gəlinən nəticələr ümumiləşdirilmişdir. Aparılan tədqiqatlardan əldə olunan qənaətlər aşağıdakı bəndlərdə əksini tapmışdır:

-Dissertasiyada ilk dəfə Mirzə Fətəli Axundzadə obrazının yaradıldığı tarixi mövzulu, müxtəlifjanrlı bədii nümunələr elmi təhlil müstəvisinə gətirilmiş, müəyyənləşdirilmişdir ki, qüdrətli ədibin obrazı yaradılan bədii əsərlərin bir qismi haqqında nə sovetlər dönəmində, nə də müstəqillik illərində, ümumiyyətlə,

ədəbiyyatşünaslıqda elmi fikir söylənilməmişdir.

- M.F.Axundzadə obrazı yaradılan tarixi mövzulu əsərlərlə yanaşı, hər bir əsər haqqında ədəbi tənqidin və ədəbiyyatşünaslığın mövqeyi, resenziyalar diqqətə alınmaqla geniş elmi müstəvidə təhlil və tədqiq olunmuş, müəyyənləşdirilmişdir ki, görkəmli ədibin şəxsiyyəti və dövrü bəhs olunan tarixi dövrlə səsləşmir, yaxud sovetlər dönəminin ədəbi-ideoloji yanaşması tarixi şəxsiyyətə obyektiv tarixi mənbələrə uyğun münasibət formalaşdırmağa mane olmuşdur.

-Sovet dövründə M.F.Axundzadə obrazı yaradılan tarixi-bədii nümunələrin tədqiqi deməyə əsas verir ki, sovet dönəminin ədəbi-tənqidi mühakimələri müstəqillik dönəminin milli ədəbiyyatşünaslıq meyarlarına uyğun olmadığı kimi, dissertasiyada sovetlər dönəmində yazılan əsərlər də, bu dövrdə yazılan əsərlərə ədəbi münasibətin ifadəsi olan araşdırmalar da milli təfəkkür işığında dəyərləndirilmişdir.

-Tədqiqat işində bədii nümunədəki ədəbi şəxsiyyət, tarixi şəxsiyyət və şəxsiyyətə yazıçı münasibəti, əsasən, nəsrin böyük janrlarında daha həssaslıqla izlənilmişdir. Kiçik həcmli janrlarda isə tarixi və ədəbi şəxsiyyətlərin bədii plandakı fərqli xüsusiyyətləri müqayisəli şəkildə öyrənilmişdir.

- M.F.Axundzadə obrazı yaradılan müxtəlifjanrlı bədii əsərlərdə bədii nümunəyə müəllif yanaşması, əsərlərin ideya-bədii xüsusiyyətləri, ümumilikdə M.F.Axundzadə şəxsiyyətinin xüsusiyyətlərini öyrənməyə tam əsas vermir.

-Dissertasiyada M.F.Axundzadə şəxsiyyətinin bədii əsərlərdə əks etdirilməsi səviyyəsi, tarixdəki M.F.Axundzadə ilə bədii əsərlərdəki M.F.Axundzadə müqayisəli şəkildə tədqiqat müstəvisinə çıxarılmış, müəyyənləşdirilmişdir ki, tarixdəki və əsərlərdəki M.F.Axundzadə şəxsiyyəti arasında yaranan fərq məhz müəllif mövqeyinin ifadəsidir.

-Dissertasiyada ilk dəfə olaraq M.F.Axundzadə obrazı yaradılan bədii nümunələrin səhnə taleyi də araşdırılmış, xüsusilə dram əsərlərin Azərbaycan səhnəsində keçdiyi yol izlənilmişdir. Nəticə olaraq belə qənaət hasil olur ki, M.F.Axundzadə obrazı yaradılan nəsr əsərləri dram əsərlərindən ədəbi-nəzəri cəhətdən daha güclüdür.

- M.F.Axundzadə obrazı yaradılan istər roman, povest və

hekayələr, istər şeir və poemalar, istərsə də dram əsərləri görkəmli ədibin həyatı və dövrünü əks etdirə bilmiş, Axundzadə şəxsiyyətinin daxili-mənəvi dünyasını, duyğu və düşüncələrini, milli qayəsini əks etdirərək geniş oxucu kütləsinə çatdıra bilmişdir. Bu isə tədqiqata cəlb olunan bədii əsərlərin üstün cəhəti kimi diqqət mərkəzinə çəkilə bilər.

-Axundzadə obrazı yaradılan müxtəlif janrlı bədii nümunələrin zəif cəhətləri, bədiiliyin pozulduğu məqamlar əsərlərin ədəbi-tarixi dəyərini azaltmır.

- Dissertasiyada M.F.Axundov obrazı yaradılan müxtəlifjanrlı bədii əsərlərin təhlil və tədqiqi, həmçinin tarixdəki M.F.Axundzadə şəxsiyyətinin yeni elmi mənbələr əsasında öyrənilməsi deməyə əsas verir ki, Mirzə Fətəli Axundzadənin dini görüşlərində islam dəyərlərini təkzib edən məqamlar sovet dövründə formalaşdırılan mövqe ilə eyniyyət təşkil etmir.

Tədqiqat işinin məzmunu müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:

1. M.F.Axundzadənin ədəbi-tənqidi görüşləri // Gəncə Dövlət Unuiversiteti. Gənc alimlərin III Beynəlxalq Elmi Konfransı, –Gəncə: Gəncə Dövlət Universitetinin nəşriyyatı, 17-18 oktyabr 2018, –2018, –s. 298-303.

2. M.F.Axundzadə obrazı Azərbaycan şairlərinin şeirlərində // –Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, –2018. I cild, №5 (94), –s. 63-67.

3. Ə.Haqverdiyevin “Xəyalat” dramında M.F.Axundzadə obrazı // –Naxçıvan: “Naxçıvan” Universitetinin Elmi əsərləri, –2018. Cild 1, №3(10), –s. 175-182.

4. Mirzə Fətəli Axundzadənin Azərbaycan dramaturgiyasında yeri // –Naxçıvan:Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi. Axtarışlar, – 2018. Cild 8, №4, – s. 55-58.

5.H.Hüseynzadənin “Ürəklər birləşəndə” poemasında M.F.Axundzadə obrazı // –Naxçıvan: Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi. Axtarışlar, –2019. Cild 10, №2, –s. 36-43.

6. Şəfaət Mehdiyevin “Mirzə Fətəli” pyesində M.F.Axundzadə obrazı // Bakı Slavyan Universiteti Azərbaycanşünaslığın Aktual Problemləri X Beynəlxalq Konfrans, –Bakı: Mütərcim, –7 may 2019,

–2019, –s. 63-66.

7. Çingiz Hüseynovun “Fətəli Fəthi” romanında M.F.Axundzadə obrazı // –Gəncə Dövlət Unuiversiteti Gənc alimlərin IV Beynəlxalq Elmi Konfransı, –Gəncə: –25-26 oktyabr 2019, –2019, –s. 178-183.

8. The critical views about the novel “Fatali fathy” by Chingiz Huseynov // Закарпатськı фiлологiчнı студй Ужгородський Нацıоналний Унıверситет, –2020. Випуск 13, Том 3. Видавиничий дім “Гельветика”, –s. 177-180.

9. Ş.Mehdiyev “Mirzə Fətəli”, A.Mədətov “İdrak işığında” əsərlərində Axundzadənin əlifba layihəsinin təsviri // Naxçıvan: mədəniyyətlərin qovuşduğu məkan. Beynəlxalq Elmi konfrans, –Naxçıvan: Əcəmi, –22-23 oktyabr 2020, –2021, –s. 260-263.

10. Axundzadə şəxsiyyəti məktublarda // –Gəncə: Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, (fundamental, humanitar və təbiət elmləri seriyası). –2021. № 1, –s.329-333.

11. Axundzadə şəxsiyyətini ona yazılan məktublardan öyrənək // –Naxçıvan: “Naxçıvan” Universitetinin Elmi əsərləri, – 2021. №1 (20). –s. 170-173.

12. The attitude of Akhundzade image to the West in the artistic works // Поетка олентану мəселелери IX, “Проблемы поетки стховеденийя IX”, посвященная 30-летию Независимости Республики Казахстан и 90-летию выдающегося казахского поэта Мукагали Макатаева, –Алматы: Kazakh National Pedagogical University Abai, Ulağat, –20-21 may 2021, –2021, –s. 79-81.

13. Mirzə Fətəli Axundovun orta məktəblərdə tədrisi problemləri // –Naxçıvan: “Naxçıvan” Universitetinin Elmi əsərləri, –2021. №4, –s. 110-113.

14. Features of M.F.Akhundzade’s character in Chingiz Huseynov’s novel of “Feteli fathi” // The XXI İnternational Scientific Symposium “Science and Culture in the Modern World. Stockholm, –Sweeden: Ertem Kafkars yayınları, 26 dekabr 2021, – 2021, –s 33-36.

15. Bədii əsərlərdə Axundzadə obrazının Qərbə və Şərqə münasibəti // –Naxçıvan: “Naxçıvan” Universitetinin Elmi əsərləri, –2022. №1, –s. 138-142.

16. Axundzadənin azərbaycançılıq ideyaları və Axundzadə

obrazının yaradıldığı bədii əsərlərdə bu ideyaların əksi // –Bakı: AMEA Əlyazmalar İnstitunun Filologiya məsələləri, –2022. №6. –s. 331-337.

17. Axundzadənin maarifçi görüşləri və Axundzadə obrazının yaradıldığı əsərlərdə bu görüşlərin əksi // –Naxçıvan: Azərbaycan Milli Elmər Akademiyası Naxçıvan Bölməsi. Axtarışlar, –2022. №3, –s. 32-35.

18. Müasirlərinin bədii yaradıcılığında Mirzə Fətəli Axundzadə obrazı // –Naxçıvan: “Naxçıvan” Universitetinin Elmi əsərləri, –2023. №4. –s. 171-175.

Dissertasiyanın müdafiəsi 01 mart 2024-cü il tarixində saat $11^{00}$-da Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.39 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhəri, Universitet şəhərciyi, AZ7012, Naxçıvan Dövlət Universitetinin əsas binası, I mərtəbə.

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 yanvar 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.01.2024
Kağız formatı: 60x84 16\1
Həcm: 43467
Tiraj: 100